

# Ulu öndər Heydər Əliyev

## vətəndaş rifahının təminatını dövlətin ali məqsədlərindən biri kimi müəyyən edib

**Dünya şöhrətli siyasətçi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev bütün türk dünyasında böyük iftixar hissi ilə xatırlanır. Xalqımız Heydər Əliyevi həmişə böyük hörmətlə yad edir, onu xatirələrdə əziz bir insan kimi yaşadır.**

**Azərbaycanın müasir tarixinin 45 ildən artıq bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Həmin dövrdə respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı uğurlara imzasını atan Heydər Əliyev zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi millətinin önündə həmişə cəsarətlə addımlamış müasir dövlətçiliyimizin banisi və qurucusu olaraq ulu öndər kimi yüksək zirvəyə ucalmışdır.**

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafındakı xidmətləri özünü hələ sovet dövründə göstərib. Azərbaycan əsrin sonunda Heydər Əliyevin sayəsində ən irimiqyaslı iqtisadi layihələrin reallaşması mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gə-ləcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya kompleksləri yaradılıb, elmi-mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Bu gün neft potensialının reallasmasında, "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsində mühüm yeri olan Dərin Özüllər Zavodu kimi dünya miqyaslı müəssisələr inşa edilib. Bununla da böyük öndərimiz hələ siyasi rəhbərliyinin birinci mərhələsində yeni inkişaf strategiyasını müəyyənləsdirib və az vaxtda onu uğurla həyata keçirib.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığısdırmaq olmur. Böyük öndərimiz tarximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalasması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycan öndərimizin siyasi cəhətdən möhkəm, məntiqli və dərin zəkalı lider olduğunu vurğulamışdır. Bütün bunlar xalqımızın böyük oğlu Heydər Əliyevin bir şəxsiyyət, siyasi xadim və dövlət başçısı olaraq hansı ucalıqda dayandığı barədə aydın təsəvvür yaradır.

XX əsrin son 30 ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmlənmiş, şöhrəti, nüfuzu yüksəklərə qalxmış, milli mənafeyi, milli mentaliteti, mədəniyyət və mənəviyyatı qorunmuş və inkişaf etmişdir. Ümummilli lider sovet hakimiyyəti dövründə respublikamızı bütün sahələrdə yüksəklərə qaldırmış, sosial-iqtisadi və mədəni sahələr üzrə həyata keçirilən tədbirlər və uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər Azərbaycanın dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır.

Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev fenomenini öz dəyərincə bütün incəliklərinə qədər qiymətləndirmək mümkün deyil. Çünki ulu öndərimiz kimi dahilər min ildə bir dünyaya gəlir və xalqının taleyində, tarixində silinməz izlər qoyur, məmləkətin, ölkənin ən çətin, ağır dövründə xilaskar rolunu oynayır. Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün nümunədir. Biz Azərbaycanı sevməyi ümummilli liderimizdən öyrənməliyik. Heydər Əliyev dünyaya xalqı üçün, onun səadətə yetisməsi üçün gəlmisdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmusdur.

**Görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev bütün həyat və fəaliyyətini Azərbaycanın dinamik və hərtərəfli inkişafına həsr edərək, müasir müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, dünya birliyinin layiqli üzvü olması, eyni zamanda, ölkədə sosial inkişafın təmin edilməsi üçün misilsiz tarixi xidmətlər göstərmişdir.**

**Ulu öndər Heydər Əliyev hələ 1969-82-ci illərdə Azərbaycana rəhbərlik edərkən malik olduğu yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və tükənməz enerjisi, qətiyyəti sayəsində Azərbaycanı qısa müddətdə bütün istiqamətlər üzrə inkişaf etdirərək keçmiş SSRİ-nin ən qabaqcıl ölkəsinə çevirmişdi. Respublikada yeni sənaye sahələri, yüzlərlə müəssisə və zavodlar yaradılmış, sənayenin dinamik inkişafı təmin edilmişdi. 1970-1982-ci illərdə Azərbaycanda əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox, həm də böyük sayda işçi tutumuna malik fabrik, zavod və digər sənaye-istehsal müəssisələri tikilib istifadəyə verilmişdi.**

Həmin illərdə Azərbaycan dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac edən sənaye respublikası kimi böyük nüfuz qazanmışdı. O zaman Azərbaycanın milli gəlirinin ümumi həcmində 2,5 dəfə artım müşahidə olunmuşdur.

Respublikada yüksəkixtisaslı mütəxəssislərin hazırlanması, əməkqabiliyyətli əhalinin məşğulluğa cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətlərində mühüm irəliləyişlər əldə edilmişdir.

Bütün istiqamətlərdə olduğu kimi, iqtisadiyyatın mühüm sahələri üzrə dolğun, yüksək səviyyəli kadr potensialının yaradılması sahəsində də ötən əsrin 70-80-ci illəri Azərbaycan tarixinin bir intibah dövrü kimi qeyd olunur. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. İqtisadi tərəqqi prosesləri ilə paralel, həmin illərdə əhalinin gəlirləri, rifah səviyyəsi də ildən-ilə artıb.

Ümummilli lider Heydər Əliyev sonralar deyirdi: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

Xüsusilə onu bildirim ki, ən mühüm tarixi hadisə kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü və böyük səyləri sayəsində 1971-ci ildə respublikamızda Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradılmışdır. Hər il yüzlərlə Azərbaycan gəncinin təhsil aldığı həmin məktəb Azərbaycanın milli zabit kadr potensialının, Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rola malikdir. Azərbaycan Ordusundakı zabit heyətinin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.

2020-ci ildə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində möhtəşəm Zəfər qazandı, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımız azad edildi. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır". Dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyin məzunları da Vətən müharibəsində rəşadətlər göstərərək, şanlı qəhrəmanlıq salnaməsi yazdılar.

1993-cü ilin iyun ayında dünya şöhrətli siyasi şəxsiyyət, görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıdışı Azərbaycanı o zaman məhvə aparan təhlükəli proseslərin, ölkədə vətəndaş qarşıdurmasının, dərin siyasi, iqtisadi və sosial böhranın, xaos və anarxiyanın, mənəvi-psixoloji gərginliyin, seperatizm ocaqlarının yaranmasının qarşısının alınmasına, xalqın yenidən öz sabahına inamla baxmasına imkan verdi. Bu tarixi qayıdış ölkəmizin müqəddəratını tənəzzüldən tərəqqiyə doğru dəyişdi. Ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin qurulmasını və uzunmüddətli inkişaf yoluna səfərbər olunmasını təmin etdi.

Milli iqtisadiyyatın sağlam əsaslar üzərində dirçəlməsi və tərəqqisini təmin edən ümummilli lider Heydər Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsini, əhalinin rifah halının, vətəndaş firavanlığının təminatını dövlətin ali məqsədlərindən biri kimi müəyyən etmişdi. Ulu öndərin rəhbərliyi ilə hazırlanan, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında da qeyd olunur: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır".

Beləliklə, iqtisadiyyatın inkişafının xalqın rifahının yüksəldilməsinə xidmət etməsi ümumi inkişafda əsas prinsiplərdən biri kimi formalaşdı və "Biz sosial cəhətdən köməyə ehtiyacı olan insanların sosial təminatını gündən-günə yaxşılaşdırmağa çalışmalıyıq" - deyə bəyan edən ümummilli lider Heydər Əliyev sosial dövlətin etibarlı təməlinin formalaşması üçün vacib əsasların yaradılmasını təmin etdi.

Yəni yeni iqtisadi münasibətlərə keçid dövrü üçün xarakterik və zəruri islahatlar prosesi əhalinin sosial müdafiəsinə yönəlik tədbirlər kompleksi ilə ahəngdar şəkildə aparıldı. Bu da sosial dövlət modelinin bariz bir nümunəsi idi. Ulu öndərin göstərişləri ilə ölkədə sosial müdafiə tədbirlərinə başlandı, sosial ödənişlərin əhatə dairəsi xeyli dərəcədə artırıldı. Büdcə imkanlarının məhdud olduğu vaxtlarda belə, sosial sahəyə xüsusi diqqət və qayğı göstərildi, əhaliyə yönələn sosial ödənişlərin mütəmadi artırılması istiqamətində mühüm addımlar atıldı.

1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev tərəfindən ölkədə sosial sahədə inkişafın, sosial müdafiənin gücləndirilməsinin, həssas qruplara qayğının artırılmasının təmin olunmasına xidmət edən çoxsaylı sənəd imzalandı. Əməkhaqlarının, müavinət və pensiyaların ardıcıl artırılması, aztəminatlı əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi üçün məqsədyönlü tədbirlər görüldü. 1995-2003-cü illərdə orta aylıq real əməkhaqqı 5,1 dəfə, orta aylıq nominal əməkhaqqı 6 dəfədən çox, pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə artdı. Həmçinin, müasir tələblərə uyğun sosial müdafiə sisteminin formalaşdırılması məqsədilə köklü islahatlara başlanıldı, sosial sahədə mütərəqqi beynəlxalq yanaşmalara uyğun qanunvericiliyin yaradılması istiqamətində ciddi işlər aparıldı.

Digər tərəfdən, 1990-cı illərin ortalarında ölkədə uğurlu aqrar islahatlar aparıldı, bu islahatlar regionların tərəqqisinə, kənd təsərrüfatının inkişafına əsaslı zəmin yaratmaqla, əmək bazarında canlanma müsbət dönüşə, kənd əhalisinin daim artan məşğulluğuna şərait yaratdı.

Bununla yanaşı, 1990-cı illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş qəhrəmanlarımızın ailələrinin, həmçinin ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş vətəndaşların dövlət tərəfindən mənzil və fərdi evlə, eyni zamanda minik avtomobilləri ilə təminatına başlanılıb. Bu mühüm sosial proqramlar ildən-ilə xeyli genişlənib.

Bu il də Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı dəfələrlə genişləndirilib. Belə ki, 2014-2019-cu illərdə uçota alınmış şəxslər, həmçinin 2020-ci ildə hərbi əməliyyatlar, o cümlədən Vətən müharibəsi zamanı şəhid olanların ailələri, bu müharibənin əlilləri 5 il ərzində mərhələli şəkildə 11 min mənzil və ya fərdi evlərlə təmin olunacaq. Onlardan 2021-ci il üzrə 3 min, yəni 2018-ci ilə nisbətən 5 dəfə çox mənzil və fərdi evin təqdim edilməsi işləri aparılır və artıq bu il 2600 mənzil bu kateqoriyadan olanlara verilib. Ümumilikdə isə indiyədək 11,7 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Eyni zamanda, Prezident İlham Əliyevin 25 avqust 2021-ci il tarixli Sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin, gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının da mənzillə təminatı işləri davam etdirilir. Avtomobillə təminat proqramı da davam edir və 2021-ci ilin ötən dövründə daha 164 avtomobil, ümumilikdə isə 7400-ə yaxın avtomobil müharibə əlillərinə təqdim olunub.

Ümummilli lider Heydər Əliyev əmək və məşğulluq sahəsində də mühüm islahatlar aparmışdır. MDB-də ilk dəfə olaraq 1999-cu ildə Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsi və Demoqrafik İnkişaf Konsepsiyası, 2001-ci ildə "Məşğulluq haqqında" Qanun və s. qəbul edilib. Əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzləri şəbəkəsinin qurulmasına, həmin şəxslər üçün inteqrasiya məqsədli tədbirlərin təşkilinə başlanıb.

Ulu öndər Heydər Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilir. 2003-cü ildən ötən dövrdə Azərbaycan iqtisadiyyatının dünyada rekord göstərici olaraq 3 dəfədən çox artması şəraitində sosial müdafiə və aktiv məşğulluq proqramları dəfələrlə genişlənib. Yoxsulluğun, işsizliyin kəskin şəkildə azaldılmasına nail olunub. Sosial müdafiə və aktiv məşğulluq proqramları dəfələrlə genişlənib, bir sıra mühüm proqramlara başlanıb. Sosial ödənişlərdə dəfələrlə artımlar edilib. Xüsusilə, son illərdə Prezident İlham Əliyevin tapşırığı ilə inqilabi sosial islahatlar reallaşdırılıb.

Vətəndaşların rifah halının yaxşılaşdırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin əsas istiqamətini təşkil edir. Son 3 il 11 ayda əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edən fərman, sərəncam, qanun və s. 900-dən çox normativ-hüquqi akt qəbul olunub. Bu sənədlərlə həm sosial ödənişlərdə ciddi artımlar olub, həm də sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,56 milyona çatıb.

Sosial təminat növləri üzrə illik xərclər də daim artır, bu xərclər 2018-2021-ci illərdə 2,4 mlrd. manat və ya 60 % artaraq 6,4 mlrd. manata çatıb. 2018-2021-ci illərdə mühüm sosial islahat paketləri nəticəsində orta aylıq nominal əməkhaqqı məbləğində 40%, minimum pensiyada 82 %, əmək pensiyalarının orta məbləğində 60% artım baş verib. Sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezident təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb. Yeni sosial təminat növləri (müharibə veteranlarına, I dərəcəli əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlərə, Vətən müharibəsi qəhrəmanlarına və b.) təsis edilib. Minimum əməkhaqqında təqribən iki dəfə artım olub.

Ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2020-ci ildə 38%-ə yüksəlib. Bu da layiqli əmək haqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunluğunun təmin edilməsində ciddi irəliləyişdir.

Dövlət başçısının 16 oktyabr 2021-ci il tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı sosial ödənişlərdə artım dinamikasının növbəti ildən də davam etməsinə əsas yaradır. Həmin artımlar 2 milyondan çox insanı əhatə edəcək.

Beləliklə, ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, uğurlu sosial-iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilərək Azərbaycana mühüm tarixi nailiyyətlər, parlaq qələbələr gətirir və qarşıdakı illər də ölkəmiz üçün bu uğurlarla, zəfərlərlə zəngin olacaqdır.

**Anar ƏLİYEV,**
**əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.**